**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STANDARTI**

**AZS TS 11848**

İlkin nəşr
2024

# ZƏRGƏRLİK XİDMƏTLƏRİ –
# ÜMUMİ QAYDALAR

## Goldsmith Service –
## General Rules

İstinad nömrəsi
AZS TS 11848:2024

AZƏRBAYCAN STANDARTLAŞDIRMA İNSTİTUTU

©AZSTAND 2024

Bu standart Azərbaycan Standartlaşdırma İnstitutunun icazəsi olmadan tam və ya hissə-hissə yenidən çap oluna, çoxaldıla və yayıla bilməz

Elçin İsaqzadə küç., 7-ci köndələn
Telefon: +994125149308
Email: office@azstand.gov.az

# MÜQƏDDİMƏ

**1.** Bu standart "AzerGold" QSC tərəfindən işlənib hazırlanıb və "Qiymətli metallar və qiymətli daşlar" standartlaşdırma üzrə Texniki Komitə (AZSTAND/TK 36) tərəfindən təqdim edilib.

**2.** "Azərbaycan Standartlaşdırma İnstitutu" PHŞ-nin "____" _______2024-cü il tarixli ______________saylı Qərarı ilə təsdiq edilib**.**

**3.** Bu standart Türk standartı TS 11848 ilə eynidir (İDT).
This standart is identical (İDT) to the Turkish Standard TS 11848

**4.** İlk dəfə tətbiq edilir.

**5.** Dövlət standartında müəyyən edilən tələblərin beynəlxalq standartlara, norma, qayda və tövsiyələrə və digər dövlətlərin müvafiq mütərəqqi milli standartlarına, elm, texnika və texnologiyanın müasir nailiyyətlərinə əsaslanmasını müəyyən etmək üçün standartın ilkin yoxlama müddəti 2025-ci il, dövri yoxlama müddəti ildə 1 dəfədir.

.

©AZSTAND –Bütün hüquqlar qorunur

**MÜNDƏRİCAT**

ÖN SÖZ ..... V
1 MÖVZU, ANLAYIŞ, ƏHATƏ DAİRƏSİ ..... 1
0.1 Mövzu ..... 1
0.2 Anlayışlar ..... 1
0.2.1 Zərgər ..... 1
0.2.2 Daxili nümayiş vitrini ..... 1
0.2.3 Xarici nümayiş vitrini ..... 1
0.2.4 Müştərilərin oturub istirahət etdiyi bölmə ..... 1
0.2.5 Daxili otaq ..... 1
0.2.6 Tərəzinin yerləşdiyi piştaxta ..... 1
0.2.7 İş yeri üzrə məsul şəxs üçün ayrılmış bölmə ..... 1
0.2.8 Satıcı üçün ayrılmış bölmə ..... 1
0.2.9 Təmir və texniki xidmət üçün ayrılmış bölmə ..... 1
0.2.10 Yeməklərin yeyildiyi bölmə ..... 1
0.2.11 Əl-üz yuyan və sanitar qovşağı ..... 2
0.3 Əhatə dairəsi ..... 2
1 ÜMUMİ QAYDALAR ..... 2
1.1 İş yeri və onun yerləşdiyi bina ilə əlaqəli qaydalar ..... 2
1.2 Məkanlar ilə əlaqəli qaydalar ..... 2
1.3 İş yerində istilik - havalandırma, su təchizatı, yanğından mühafizə, ətraf mühitin mühafizəsi, rabitə sistemi ilə əlaqəli qaydalar ..... 3
1.4 İdarəçilik ilə əlaqəli qaydalar ..... 3
1.5 İşçi heyəti ilə əlaqəli qaydalar ..... 3
2 MÜXTƏLİF MÜDDƏALAR ..... 4
3 NORMATİV İSTİNADLAR ..... 4
BİBLİOQRAFİYA ..... 5


©AZSTAND –Bütün hüquqlar qorunur

## ÖN SÖZ

- Bu standart Türk Standartları İnstitutunun (TSE) Xidmət Standartlarının Hazırlıq Qrupu tərəfindən yaradılmış müvafiq texniki komitə tərəfindən tərtib edilmiş və Qrupda yekun formaya salındıqdan sonra TSE Texniki Şurasının 24 oktyabr 1995-ci il tarixli iclasında qəbul edilərək dərc olunmasına qərar verilmişdir.
- Bu standartın hazırlanmasında milli tələbat və imkanlarımız ön planda olmaqla, beynəlxalq standartlar və iqtisadi əlaqələrimizin olduğu xarici ölkələrin standartlarının əsasları da nəzərə alınaraq, faydalı hesab edilən yerlərdə mümkün yaxınlıq və oxşarlıqların təmin edilməsinə və bu əsasların ölkəmizin mövcud şərtləri ilə uyğunlaşdırılmasına səy göstərilmişdir.
- Araşdırmalarda elmi qurumlar, istehsalçı, məhsul emal edən, satıcı və istehlakçı kimi aidiyyəti tərəflər ilə lazımi əməkdaşlıq edilmiş və hazırlanmış layihə son formasını almamışdan əvvəl 61 yerə göndərilərək onların rəyi alınmışdır.
- Bugünkü texnika və təcrübə əsasında hazırlanmış bu standartın vaxt keçdikcə baş verəcək inkişaf və dəyişikliklərə uyğunlaşdırmaq mümkün olduğundan, müvafiq tərəflərdən nəşrlərimizi diqqət mərkəzində saxlamalarını və tətbiqi zamanı qarşılaşacaqları problemləri İnstitutumuza bildirmələrini xahiş edirik.
- Bu standartı hazırlayan Hazırlıq Qrupu və Texniki Komitənin üzvü olan dəyərli ekspertlərə səylərinə görə, layihələrə öz rəylərini bildirməklə köməklik göstərən elm, dövlət və özəl sektor təşkilatlarına və ayrı-ayrı şəxslərə dəyərli töhfələrinə görə minnətdarlığımızı bildiririk.

©AZSTAND –Bütün hüquqlar qorunur 

**Zərgərlik xidmətləri —**
**Ümumi qaydalar**

**AZS TS 11848:2024**

**Goldsmith Service –**
**General Rules**

Tətbiq edilmə tarixi “____” _______2024-cü il

## 1 MÖVZU, ANLAYIŞ, ƏHATƏ DAİRƏSİ

**0.1 Mövzu**
Bu standart zərgərlik xidmətləri ilə əlaqəli ümumi qaydaları əhatə edir.

**0.2 Anlayışlar**
**0.2.1 Zərgər**
Zərgər qızıl, gümüş və digər qiymətli metallardan zinət əşyalarının hazırlandığı və satışının həyata keçirildiyi iş yeridir.

**0.2.2 Daxili nümayiş vitrini**
Daxili nümayiş vitrini zərgərlik müəssisəsində müştərilərə təqdim edilmək üçün hazırlanmış zinət əşyalarının nümayiş etdirildiyi, masa - piştaxta şəklində dizayn olunmuş bölmədir.

**0.2.3 Xarici nümayiş vitrini**
Xarici nümayiş vitrini zinət əşyalarının zərgərlik müəssisəsinin çöl hissəsində müştərilərə təqdim edildiyi bölmədir.

**0.2.4 Müştərilərin oturub istirahət etdiyi bölmə**
Müştərilərin oturub istirahət etdiyi bölmə zərgərlik müəssisəsinə gələnlərin oturduğu, çay və s.-in təklif edildiyi bölmədir.

**0.2.5 Daxili otaq**
Daxili otaq zinət əşyalarının saxlanıldığı seyfin olduğu məkandır.

**0.2.6 Tərəzinin yerləşdiyi piştaxta**
Tərəzinin yerləşdiyi piştaxta qızıl, gümüş və s. zinət əşyalarının ölçüldüyü və qiymətinin müəyyən olunduğu məkandır.

**0.2.7 İş yeri üzrə məsul şəxs üçün ayrılmış bölmə**
İş yeri üzrə məsul şəxs üçün ayrılmış bölmə rəhbər şəxsin əyləşdiyi, maliyyə və inzibati xidmətləri həyata keçirildiyi məkandır.

**0.2.8 Satıcı üçün ayrılmış bölmə**
Satıcı üçün ayrılmış bölmə satıcının müştərini gözləyərkən əyləşdiyi məkandır.

**0.2.9 Təmir və texniki xidmət üçün ayrılmış bölmə**
Təmir və texniki xidmət üçün ayrılmış bölmə zərgərlik müəssisəsində müştərilərin zinət əşyalarının təmir olunduğu və texniki xidmətinin icra edildiyi məkandır.

**0.2.10 Yeməklərin yeyildiyi bölmə**
Yeməklərin yeyildiyi bölmə zərgərlik müəssisəsində və ya iş mərkəzində yeməklərin bişirildiyi və yeyildiyi, çay və s.-in hazırlandığı məkandır.

**0.2.11 Əl-üz yuyan və sanitar qovşağı**
Əl-üz yuyan və sanitar qovşağı TS 1258[1]-də qeyd edilmiş texniki xüsusiyyətlərə əsasən qurulmuş TS 8357-yə uyğun məkandır.

**0.3 Əhatə dairəsi**
Bu standart zərgərlik xidmətləri ilə bağlı ümumi qaydaları əhatə edir. Zinət əşyalarının və s.-in satışının həyata keçirildiyi müəssisələri əhatə etmir.

*QEYD - Bundan sonra "Zərgərlik obyekti" ifadəsinin əvəzinə "İş yeri" terminindən istifadə edilmişdir.*

## 1 ÜMUMİ QAYDALAR

**1.1 İş yeri və onun yerləşdiyi bina ilə əlaqəli qaydalar**
1.1.1 İş yeri ümumi görünüşü etibarilə ətraf mühitə uyğun binalarda, şəhər mərkəzlərində, biznes və ticarətin sıx olduğu bölgələrdə, mümkün olduğu təqdirdə bu iş sahəsi üçün nəzərdə tutulmuş yerlərdə olmalıdır.
1.1.2 İş yeri hörgü və ya dəmir-beton sistemlər vasitəsilə tikilmiş tək və ya çoxmərtəbəli alış-veriş məkanlarında, prospekt və ya küçələrdə olmalıdır.
1.1.3 İş yerinin fasadı, vitrini və girişi müasir tikinti materialları və tikinti texnologiyası ilə göstərilən xidməti ifadə edəcək şəkildə xüsusi olaraq dizayn edilməli, orada müvafiq rəng, forma və ölçüdə lövhə olmalıdır.

**1.2 Məkanlar ilə əlaqəli qaydalar**
1.2.1 Giriş hissədən etibarən daxili və xarici nümayiş vitrinləri, müştərilərin oturub istirahət etdiyi bölmə, seyf üçün daxili otaq, tərəzinin yerləşdiyi piştaxta, iş yeri üzrə məsul şəxs və satıcı üçün ayrılmış bölmələr, təmir və texniki xidmət üçün ayrılmış bölmə, əl-üz yuyan, ümumi və ya ayrı sanitar qovşağı, yeməklərin yeyildiyi bölmə olmalıdır.
1.2.2 İşçilərin və müştərilərin istifadə etdiyi ümumi və ya ayrı sanitar qovşaq TS 8357-yə uyğun olmalı, çoxmərtəbəli alış-veriş mərkəzlərində sanitar qovşaqlar kişi və qadın üçün ayrıca təşkil edilməli və bu yerlərdə kifayət qədər əl-üz yuyan olmalıdır.
1.2.3 İş yerindəki sanitar qovşaqlarda dezinfeksiyaedici və dezodorasiyaedici vasitələr və rulon şəklində parça dəsmal olmalıdır.
1.2.4 Piştaxta şəklində quraşdırılmış vitrinlər və divar vitrinləri dekorativ görünüşlü materiallardan hazırlanmalıdır.
1.2.5 İş yerinin döşəməsi asanlıqla təmizlənib silinə bilən iş yerinin ümumi tərtibatına uyğun rənglərdə keramika və s. materialla örtüklənmiş olmalıdır.
1.2.6 Məkanlar xidmət üçün kifayət edəcək böyüklükdə və funksional olmalı, məkanlar təyinatına uyğun olaraq yaxşı materiallardan hazırlanmış əşyalarla təchiz edilməli, əsasən piştaxta şəklində quraşdırılmış vitrinlərin qarşısında oturmaq üçün guşələr yaradılmalıdır.
1.2.7 İş yerində imkan dairəsində fasiləsiz aşağı tonda musiqi və televiziya yayımı olmalıdır.
1.2.8 Zinət əşyalarının nümayişi üçün quraşdırılmış xarici fasad, daxili divar və piştaxta şəklində olan vitrinlər məkanlara uyğun ölçüdə olmalı, yanğına və zərbəyə davamlı materiallardan hazırlanmalıdır.
1.2.9 Soyuq havalarda, xüsusilə xarici fasad vitrinin şüşəsində baş verə biləcək kondensləşmənin qarşısını almaq üçün müvafiq tədbirlər görülməlidir.
1.2.10 İş yerində satılan zinət əşyaları növünə görə ayrı-ayrı nümayiş etdirilməlidir.

---
[1] Bu standart mətndə istinad olunan standartların nömrələri, nəşr tarixləri və türkcə və ingiliscə adları üz qabığının arxa hissəsində verilmişdir.

 ©AZSTAND –Bütün hüquqlar qorunur

1.2.11 İş yerində giriş qapısı və vitrinin şüşələri qırılmaya və güc təzyiqinə qarşı siqnalizasiya cihazı ilə təchiz olunmalı, qapalı dövrəli TV monitorinq cihazı və ən yaxın mühafizə mərkəzinə qoşulmuş siqnalizasiya sistemi olmalıdır.

1.2.12 İş yerində **TS 6075**-də qeyd olunan xüsusiyyətlərə malik dərman dolabı olmalıdır.

**1.3 İş yerində istilik - havalandırma, su təchizatı, yanğından mühafizə, ətraf mühitin mühafizəsi, rabitə sistemi ilə əlaqəli qaydalar**

1.3.1 İş yeri ətraf mühitə zərərli olmayan yanacaq və mərkəzi istilik sistemi ilə qızdırılmalı, istilik sistemi isə əsasən isti hava üfürmə sistemi olmalıdır.

1.3.2 İş yerində elektrik enerjisinin kəsilməsinə qarşı fasiləsiz enerji təchizatı və ya ehtiyat elektrik enerjisi istehsal edən qurğu olmalı, işıqlandırma qurğusu TS 3204-ə uyğun olmalı, vitrinlər isə ən azı 600 lüks intensivliklə işıqlandırılmalıdır.

1.3.3 İş yeri təbii şəkildə havalandırılmalı, bu, mümkün olmadığı təqdirdə TS 3419 və TS 3420-yə uyğun şəkildə mexaniki havalandırma sistemi olmalıdır.

1.3.4 İş yerində birgə və ya ayrı sanitar qovşaqları TS 1258-ə müvafiq olaraq quraşdırılmalı və TS 266-ya uyğun olaraq lazımi təzyiqdə fasiləsiz su və kifayət qədər böyüklükdə ehtiyat su çəni olmalıdır.

1.3.5 Yanğınla əlaqəli olaraq TS 4156-ya uyğun tədbirlər görülməli, çoxmərtəbəli alış-veriş mərkəzlərində istiliyə qarşı həssas olan və avtomatik şəkildə tavandan çiləmə sistemi ilə işləyən yanğın söndürmə sistemi, müstəqil iş yerlərində isə istiliyə və tüstüyə qarşı avtomatik işə düşən detektorlara qoşulmuş yanğın söndürmə sistemi olmalıdır.

1.3.6 Zərərvericilərə qarşı mübarizədə həşərat qovucu bitki qarışıqlarından istifadə edilməli, zibillər plastik torbalara yığılmalıdır.

1.3.7 İş yerində ofis xidmətləri kompüter sistemi vasitəsilə həyata keçirilməli, telefon, faks kimi rabitə vasitələri olmalı, çoxmərtəbəli alış-veriş mərkəzinə bənzər obyektlərin girişində ictimai telefon və bankomat aparatı qoyulmalıdır.

1.3.8 İş yerində elektrik kabelləri suvağın altından çəkilməli və ya antikon kabellərdən istifadə olunmalıdır.

1.3.9 İş yerinin təmir və metal əritmə bölmələrində istifadə olunan mayeləşdirilmiş qaz balonları iş yerindən kənarda saxlanmalı, buradan sobalara mis borular vasitəsilə birləşdirilməlidir.

1.3.10 Satış məkanlarında temperaturun 18°- 20°, təmir və texniki xidmət bölməsində isə 15° olması tövsiyə olunur.

**1.4 İdarəçilik ilə əlaqəli qaydalar**

1.4.1 İş yerində divar vitrinləri və piştaxta şəklində quraşdırılmış vitrinlər müştərilərin məhsullara özbaşına baxmasına imkan verməyəcək şəkildə hazırlanmalıdır.

1.4.2 Satılan zinət əşyalarının rəngli kataloqu hazırlanmalı və tələb əsasında verilmiş ünvana getməklə bəyəndirmə və ünvanda təhvil xidməti göstərilməlidir.

1.4.3 Tərəzi xidməti ən azı 1 mq həssaslığa malik rəqəmsal tərəzi cihazı ilə göstərilməli, tərəzinin nəticəsini birbaşa yazılı sənəd şəklinə gətirən sistem olmalı və bu sənəd alıcıya və ya satıcıya verilməlidir.

1.4.4 İş yerindəki zinət əşyaları sığortalanmalı və alıcıya əyarla əlaqəli zəmanət sertifikatı verilməlidir.

**1.5 İşçi heyəti ilə əlaqəli qaydalar**

1.5.1 İş yerində işləyən işçilər peşə təhsili almış və ya peşə palatasının təşkil etdiyi kursları bitirmiş olmalıdır.

1.5.2 İş yerində iş təcrübəsi və təhsil məsələləri üzrə öz prinsiplərinə və xidmət anlayışına uyğun olaraq iş yerindən ayrılmadan təlim keçilməlidir.

©AZSTAND –Bütün hüquqlar qorunur

## 2 MÜXTƏLİF MÜDDƏALAR

**2.1** Müəssisə sahibləri bu standarta uyğun fəaliyyət göstərdiklərini bəyan etdikləri zərgərlik xidmətləri üçün tələb olunduğu təqdirdə standarta uyğunluq bəyannaməsini təqdim etmək və ya göstərmək, o cümlədən 1-ci maddədəki qaydalara riayət etmək məcburiyyətindədir.

## 3 NORMATİV İSTİNADLAR

TS 266/Haziran 1984 İçme suları

TS 1258/Ekim 1983 Temiz Su Tesisatı Hesap Kuralları

TS 3204/Nisan 1978 Binalarda Elektrik Tesisatı - Temel Prensipleri

TS 3419/Haziran 1979 Havalandırma ve İklimlendirme Tesislerinin Projelendirilmesi Kuralları

TS 3420/Haziran 1979 Havalandırma ve İklimlendirme Tesislerini Yerleştirme Kuralları

TS 4156/Haziran 1991 Yangından Korunma - Umumi Yerlerle İlgili Genel Kuralları

TS 6075/Ekim 1985 Ecza Dolabı

TS 8357/Nisan 1990 Halkla ve Müşterilere Açık WC`lerin Sınıflandırma özellikleri

 ©AZSTAND –Bütün hüquqlar qorunur

# BİBLİOQRAFİYA

Neufert

Müxtəlif zərgərlik müəssisələri ilə aparılan müzakirələr

**ICS 03.080.30, 39.060**

**Açar sözləri: Zərgərlik xidmətləri, qaydalar**



©AZSTAND –Bütün hüquqlar qorunur

Rəsmi nəşr
“Azərbaycan Standartlaşdırma İnstitutu”
publik hüquqi şəxs

**AZS TS 11848:2024**
**ZƏRGƏRLİK XİDMƏTLƏRİ –**
**ÜMUMİ QAYDALAR**

©AZSTAND –Bütün hüquqlar qorunur